AZƏRBAYCAN RESPUBLİKASI
ƏQLİ MÜLKİYYƏT AGENTLİYİ

# 2018-2023-cü illərdə AZƏRBAYCANDA SƏNAYE NÜMUNƏLƏRİNİN, COĞRAFİ GÖSTƏRİCİLƏRİN VƏ ƏMTƏƏ NİŞANLARININ ANALİTİK İCMALI

Bakı – 2024

**Kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri, professor Kamran İmanovun rəhbərliyi ilə Agentliyin Əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin apardığı təhlillər və materiallar əsasında hazırlanmışdır.**

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi.
2024**

# Mündəricat

Ön söz ............................................................ 5

1. Sənaye nümunəsi .......................................... 6

2. Coğrafi göstəricilər .......................................... 29

3. Əmtəə nişanı .................................................... 35

4. Əlavələr ............................................................ 52

4.1. *2023-cü ildə qüvvədə olan rezident hüquqi şəxslərin sənaye nümunələrinin siyahısı* ............................................................ 53

4.2. *2023-cü ildə qüvvədə olan coğrafi göstəricilərə verilən şəhadətnamələrin siyahısı* ............................................................ 58

# Ön söz

***"Əqli mülkiyyət – insan əqlinin yaradıcılığının nəticəsini təcəssüm etdirir"***

*Kamran İmanov,*
Əqli Mülkiyyət Agentliyinin
İdarə Heyətinin sədri, professor

Ölkələr arası rəqabətin gücləndiyi və qloballaşma şəraitində əqli mülkiyyət hər bir dövlət üçün mühüm iqtisadi resurs mahiyyətini daşımağa başlayır, bazarda yaradıcısına və ölkəsinə gəlir gətirə biləcək biliklərin məhsula və texnologiyalara çevrilməsinə yardım edir.

Əqli mülkiyyətin inkişafına dəstək və onun qorunması bütün bəşəriyyətin rifahına, inklüziv iqtisadi artıma, ölkələrin innovativ fəaliyyətinə, millətin əqli potensialının reallaşmasına öz müsbət töhfəsini verir. Əqli mülkiyyət istifadəsi yeni iş yerlərinin və sənaye sahələrinin açılmasına, insan həyatının keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır.

Əqli mülkiyyətin terminoloji aspektini araşdırarkən, qeyd etmək lazımdır ki, əqli mülkiyyət anlayış olaraq insan əqlinin yaradıcılığının nəticəsini təcəssüm etdirir. Kommersiya məqsədi ilə istifadə olunan ixtiralar, bədii və ədəbi əsərlər, simvolika, adlar, təsvirlər və s. əqli mülkiyyət obyektlərinə aiddir. Əqli mülkiyyət obyektlərinin spesifikasiyaları və göstəriciləri bu və ya digər məhsul haqqında istehlakçıya kifayət qədər dolğun məlumat verir.

# 1. Sənaye nümunəsi

Sənaye nümunəsi – sənaye və ya əl işləri məhsullarının və məmulatlarının dizaynını, xarici görünüşünü, erqonomik xüsusiyyətlərini özündə əks etdirən əqli mülkiyyət obyektidir. Əqli mülkiyyət hüququ məhsulun estetik aspektini və zahiri görünüşünü sənaye nümunəsinə aid edir. Məhz bu amillər istehlakçılar üçün məhsulu cəlbedici və maraqlı edir, müştərinin bu və ya digər məhsula üstünlük vermə qərarına həlledici təsir göstərir.

Sənaye nümunəsi məhsulun əlavə dəyərini artırır, istehlakçılar üçün onu cəlbedici edir, hətta satışların artmasına təkan verən unikal xüsusiyyətlərə malik ola bilər. Beləliklə, dəyərli sənaye nümunələrinin qorunması hər hansı bir dizaynerin və ya istehsal şirkətinin işgüzarlıq strategiyasının vacib bir hissəsinə çevrilməlidir.

Sahibi sənaye nümunəsini milli əqli mülkiyyət ofisində qeydiyyatdan keçirməklə onu qoruma altına alır və digər şəxslərin icazəsiz surət çıxartmasının və ya imitasiyasının qarşısını alma istiqamətində müstəsna hüquq qazanır. Bu çox praktiki əhəmiyyətə malikdir, çünki biznesin rəqabətlilik qabiliyyətini artırır və gəlirlərin artmasını təmin edir.

Sənaye nümunəsi texniki və tibbi avadanlıqlardan saatlara, zərgərlik və təmtəraq əşyalarından qab-qacaqlara, oyuncaqlardan, mebel və məişət texnikasına, nəqliyyat vasitələrindən memarlıq obyektlərinə, bəzəkli parçalardan idman avadanlıqlarına qədər sənaye və

sənətkarlıq məhsullarının çox geniş siyahısı üçün aktual anlayışdır. Bundan başqa sənaye nümunəsi qablaşdırma, zahiri görünüş, həcm məsələlərində də mühüm rol oynayır.

Əksər ölkələrdə olduğu kimi Azərbaycanda da, sənaye nümunələri haqqında qanunvericiliyə uyğun olaraq, qorunması üçün sənaye nümunələrinin qeydiyyatdan keçirilməsi zəruridir. Bununla yanaşı, qeydiyyata alınmış sənaye nümunəsinə onun prioritetini, müəllifliyini və müstəsna hüququnu təsdiqləyən patent verilir.

Vurğulamaq lazımdır ki, bəzi ölkələr və Avropa İttifaqı kimi digər iqtisadi zonalarda Avropa İttifaqının sənaye nümunələri haqqında məlumatın dərc edildiyi gündən etibarən üç il müddətində hətta qeydə alınmamış sənaye nümunələrinə də məhdud qorunma imkanı tanınır. Belə ki, məhdud qoruma şirkətlərə qeydə alınmamış sənaye nümunəsinin bazarda sınaq satışlarını həyata keçirməyə imkan yaradır. Bu halda şirkətlər əllərində mövcud olan bütün sənaye nümunələrinin qeydiyyatına əlavə vəsait və zaman xərcləmirlər, yalnız bazarda uğur qazanmış məhsulların sənaye nümunələrinin qeydiyyatını həyata keçirmiş olurlar.

Bəzi sənaye nümunələri bazarda “uzunömürlü” olmur, xüsusən də dəb sahəsinə aid olan əşyalar. Belə məhsullar üçün qeydiyyata alınmayan nümunə yaxşı alternativ sayılır. Lakin, məhsulların istehsalından sonra məhsulun qeydiyyatını həyata keçirmək üçün dizaynerlərin ixtiyarlarına bir il müddət verilir.

Qeydə alınmamış sənaye nümunəsi üçün qorunma daha zəifdir, çünki qeydə alınmış nümunə ilə müqayisədə onların hüquqlarını qorumaq daha çətindir və qorunma müddəti cəmi üç ildir, halbuki, qeydiyyatdan keçən sənaye nümunəsi  Avropa Birliyi ölkələrində 25 il müddətinə qorunma imkanına malik olur.

Ayrı-ayrı ölkələrdə bəzi sənaye nümunələri incəsənət və ya tətbiqi sənət əsərləri sayıla bildiyindən, onlara müəlliflik hüquqlarının qorunması tətbiq oluna bilər ki, bu da kiçik və orta müəssisələr üçün çox cəlbedici seçimdir.

Cədvəl 1-də 2018-2023-cü illər üzrə sənaye nümunələrinin göstəriciləri qeyd edilmişdir. Bu dövrdə sənaye nümunələrinə patent almaq üçün müraciətlərin sayının 2018-ci ildə 41-dən artıb 2019-cu ildə 78 olmuşdur. 2020 və 2021-ci illərdə azalaraq müvafiq olaraq 16 və 26 olmuş (azalmaya ölkədə pandemiyanın olması təsir etmişdir) və 2021-ci ildən başlayaraq 26, növbəti illərdə  31 və 34-ə qədər artmışdır (Diaqram 1).

2018-2023-cü illər ərzində rezidentlər tərəfindən edilən müraciətlərin sayı 172, qeyri-rezidentlər tərəfindən isə 54 olmuşdur. Eyni zamanda, sənaye nümunələri üçün verilən 148 patentdən 80-i rezidentlərin, 68-i isə qeyri-rezidentlərin payına düşür. Qeyri-rezidentlərin Azərbaycanda sənaye nümunələri üçün kifayyət qədər çox patent alması, xarici istehsalçıların təkcə öz əmtəə nişanları deyil, həm də öz məhsullarının müxtəlif dizayn elementlərini qorumaq istəyi ilə izah edilə bilər, çünki sənaye nümunəsi üçün patent məhsulların görünüşü və erqonomik xüsusiyyətləri ilə əlaqəli həlləri qoruyur.

Rusiyada sənaye nümunəsi üçün patent müraciətinə baxılma müddəti 10-12 ay, Ukraynada 7-9 aydır. Azərbaycanda isə bu 2018-2023-cü illər üzrə orta hesabla 8,5 ay təşkil etmişdir (Diaqram 1a).

Sənaye nümunələri üçün mövcud patentlərə əsasən 2023-cü ildə 1866 sənaye nümunəsi patenti qüvvədə olmuşdur. Bunlardan 30-u rezidentlərə, 77-i qeyri-rezidentlərə,1759-u isə Haaqa proseduru üzrə verilmişdir. (Diaqram 2).

Rezidentlərin qüvvədə olan sənaye nümunələri: 19-u – hüquqi şəxslərə və 11 – fiziki şəxslərə aiddir (Diaqram 3).

Əlavələrdə Cədvəl 4.1-də hüquqi şəxslərə verilən qüvvədə olan sənaye nümunələri patentlərinin paylanması göstərilir. Bunlardan "Azərsun Holdinq MMC"-5 sənaye nümunəsi və "PROLINE CHEMICALS MMC"-4, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi-2, “Azər Gold” Qapalı Səhmdar Cəmiyyəti-2, “Kürdəmir süd emalı zavodu" MMC-2, "ƏMİR" Texniki xidmətlər MMC- 1, tam xarici investora məxsus "BAYCE LİMİTED" şirkəti-1, "Arkoz İnşaat Şirkəti" MMC-1, "DELTA QRUP C.O." MMC-1 sənaye nümunəsini ayırd etmək olar.

Qeyri-rezidentlərin qüvvədə olan sənaye nümunələrinin patentlərinin ölkələr üzərə paylanması Diaqram 4-də verilmişdir. Patentlərin ən çoxu Türkiyə – 26, Koreya-9, İtaliya-9 və Rusiya-7 sahibkarlarına məxsusdur.

Qeyd etmək lazımdır ki, sənaye nümunələrini həm milli ofisdə, həm də ÜƏMT-da beynəlxalq ərizə verməklə – Haaqa adlanan sistem altında qeydiyyatdan keçirmək

mümkündür. Haaqa sistemi iki müstəqil (Haaqa 1960-cı il və Cenevrə 1999-cu il) aktlardan ibarət olan Sənaye nümunələrinin Beynəlxalq Qeydiyyatı haqqında Haaqa Müqaviləsidir. Haaqa sistemi vasitəsi ilə verilən bir iddia sənədi əsasında müvafiq anlaşmanın üzvü olan bütün ölkələrdə sənaye nümunəsinin qorunmasını təmin etməyə imkan yaradır.

Haaqa sisteminə əsasən sənaye nümunəsi üçün patentin alınma müddəti seçilmiş ölkələrdən asılıdır. Onların hər birinin milli qanunvericiliyi verilmiş məsələni özünəməxsus tənzimləyir. Məsələn, Avropa İttifaqında, patent qabiliyyətliliyi yoxlanılmadığından, elan edilmiş qərarın hüquqi mühafizəsi iddia sənədi təqdim edildikdən 2 ay sonra və ABŞ-da iddia sənədinə baxılma müddəti 2 ilə qədər ola bilər.

*Cədvəl 1*

**Azərbaycan üzrə sənaye nümunələri ilə bağlı mütləq göstəricilərin dinamikası** *(əd.)*

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| *1.İddia sənədləri, ümumi o cümlədən* | 41 | 78 | 16 | 26 | 31 | 34 |
| *- yerli (rezident)* | 26 | 64 | 10 | 20 | 28 | 24 |
| *- xarici (qeyri-rezident)* | 15 | 14 | 6 | 6 | 3 | 10 |
| *2. Verilən patentlərin sayı, ümumi , o cümlədən* | 154 | 179 | 124 | 157 | 133 | 172 |
| *- yerli (rezident)* | 11 | 21 | 15 | 15 | 12 | 6 |
| *- xarici (qeyri-rezident)* | 13 | 11 | 16 | 12 | 10 | 6 |
| *-Haaqa proseduruna əsasən* | 130 | 147 | 93 | 130 | 111 | 160 |
| *3. Qüvvədə olan patentlər* | 1505 | 1548 | 1604 | 1676 | 1739 | 1866 |
| *-yerli (rezident)* | 51 | 46 | 32 | 38 | 29 | 30 |
| *-xarici (qeyri-rezident)* | 99 | 116 | 106 | 106 | 85 | 77 |
| *-Haaqa proseduruna əsasən* | 1355 | *1386* | 1466 | 1532 | 1625 | *1759* |

*Diaqram 1*

**Azərbaycan üzrə milli sənaye nümunələri ilə bağlı mütləq göstəricilərin dinamikası**




*Diaqram1a*



*Diaqram 2*

**Azərbaycan üzrə 2023-cü ildə qüvvədə olan sənaye nümunəsini paylanması**




*Diaqram 3*

**Azərbaycan üzrə 2023-cü ildə qüvvədə olan sənaye nümunələrinin paylanması**



*Diaqram 4*

**2023-cü ildə qeyri-rezidentlərin qüvvədə olan sənaye nümunələrinin ölkələr üzrə paylanması**




*Diaqram 5*

**2023-cü ildə Haaqa konvensiyasına əsasən daha çox qüvvədə olan sənaye nümunələrinin ölkələr üzrə paylanması** *(ÜƏMT-nın məlumatına görə, Azərbaycanda 20 fevral 2024-cü il üçün qüvvədə olan sənaye nümunələrinin sayı 1711-dir)*



Haaqa sisteminə uyğun olaraq, 2024-cü ilin fevralına Azərbaycan ərazisində 1711 sənaye nümunəsi qüvvədədir. Keçən il ilə müqayisədə sənaye nümunəsinin sayı 86 vahid artmışdır. Onların arasında ən çoxu İsveçrə – 914, Fransa – 164 və Türkiyə– 97 aiddir (Diaqram 5).

Rahat axtarış üçün sənaye nümunələri adətən təsnif olunur və ya siniflər üzrə qruplaşdırılır. Bir çox ölkələr sənaye nümunələri üçün Lokarno sazişinə uyğun olaraq, Beynəlxalq sənaye nümunələrinin təsnifatından – BSNT ("Lokarno klasifikasiyası") istifadə edirlər. Bu təsnifat 8 oktyabr 1968-ci ildə sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyasının bütün iştirakçı dövlətlərin Lokarno şəhərində (İsveçrə) Diplomatik konfransda qəbul edilmişdir.

"Lokarno təsnifatı" aşağıdakılardan ibarətdir: siniflərin və alt siniflərin siyahısı; sənaye nümunələrinin satıldığı malların əlifba sırası ilə siyahısı, hər məhsulun aid olduğu sinif və alt sinif göstərilməklə; izahlı qeydlər. Hazırkı (on ikinci) nəşrə 32 sinif və 237 alt sinif daxildir, bunlar bəzi hallarda izahlı qeydlərlə müşayiət olunur. On ikinci nəşr 1 yanvar 2019-cu ildə qüvvəyə minmişdir.

Milli ofisdə ən çox sənaye nümunəsi 9-cu sinfə düşür – Malların daşınmasında, manipulyasiya edilməsində və saxlanmasında istifadə olunan qablaşdırmalar, bağlamalar və konteynerlər – 45 məhsul (Cədvəl 2).

*Cədvəl 2*

**2023-cü il üzrə Beynəlxalq sənaye nümunəsi təsnifatına əsasən, Azərbaycanda qüvvədə olan sənaye nümunələrinin paylanması**

| Bölmə göstəricisi (indeksi) | Bölmənin adı | Sənaye nümunələrinin sayı |
|---|---|---|
| Sinif 01 | Qida məhsulları | 2 |
| Sinif 02 | Geyim və qalantereya | - |
| Sinif 03 | Səyahət aksessuarları, futlyarlar, zontlar və digər siniflərə daxil olmayan şəxsi istifadə əşyaları | - |
| Sinif 04 | Şotka məhsulları | - |
| Sinif 05 | Parça və ya ədədlə olan tekstil məmulatları, süni və təbii təbəqə materialları | - |
| Sinif 06 | Mebel əşyaları | 3 |
| Sinif 07 | Digər siniflərə daxil olmayan ev əşyaları | 7 |
| Sinif 08 | Alətlər və metal məmulatları | 1 |
| Sinif 09 | Malların saxlanması və daşınması üçün istifadə olunan tara, qablaşmalar və konteynerlər | **45** |
| Sinif 10 | Saatlar, ölçü, nəzarət və həyəcan sistemi üçün digər cihazlar və alətlər | 1 |
| Sinif 11 | Bəzək əşyaları | **14** |
| Sinif 12 | Nəqliyyat vasitələri və qaldırıcı qurğular | 6 |
| Sinif 13 | Elektrik enerjisinin alınması, paylanması və ya çevrilməsi üçün avadanlıqlar | **3** |

| | | |
|---|---|---|
| Sinif 14 | Məlumatın axtarəşı, yazılması, ötürülməsi və təkmilləşdirilməsi üçün avadanlıq | - |
| Sinif 15 | Digər siniflərə daxil olmayan maşın və dəzgahlar | 1 |
| Sinif 16 | Foto və kinematoqrafiya avadanlıqları, optik cihazlar | - |
| Sinif 17 | Musiqi alətləri | - |
| Sinif 18 | Mətbəə və ofis avadanlığı | 1 |
| Sinif 19 | Dəftərxana və ofis ləvazimatları, bədii yaradıcılıq və təhsil üçün material və ləvazimatlar | 3 |
| Sinif 20 | Ticarət və reklam üçün avadanlıqlar, göstərici nişanlar | - |
| Sinif 21 | Oyunlar, oyuncaqlar, çadırlar, tentlər və idman malları | 3 |
| Sinif 22 | Silahlar, pirotexnika məhsulları, ovçuluq və balıqçılıq ləvazimatları, zərərvericiləri məhv etmək üçün qurğular | - |
| Sinif 23 | Maye və qazların paylanması üçün qurğular, sanitariya avadanlıqları, havanın isinməsi, ventilyasiyası və kondisiyalaşdırılması üçün ava-danlıqlar, bərk yanacaqlar | 2 |
| Sinif 24 | Tibbi və laboratoriya avadanlıqları | 3 |
| Sinif 25 | Tikinti blokları, tikinti konstruksiyaları və onların elementləri | 6 |
| Sinif 26 | İşıqlandırma cihazları və qurğuları | - |
| Sinif 27 | Tütün məmulatları və siqaret | - |

| | | |
|---|---|---|
| | çəkmək üçün ləvazimatlar | |
| Sinif 28 | Əczaçılıq və kosmetika məhsulları, tualet məhsulları və vasitələri - | - |
| Sinif 29 | Xilasetmə və bədbəxt hadisələrin qarşısının alınması üçün qurğular, avadanlıq və ləvazimatlar | - |
| Sinif 30 | Heyvanların saxlanması və qulluğu üçün məhsullar və avadanlıqlar | 1 |
| Sinif 31 | Digər siniflərə daxil olma-yan ərzaq və ya içkilərin hazırlanması üçün maşınlar və aparatlar | - |
| Sinif 32 | Qrafik simvollar və elementlər (loqotiplər), səthi dekorativ motivlər, bəzəklər | 5 |
| **Yekun** | | **107** |

Rezidentlərin ən çox qüvvədə olan sənaye nümunələri 9-cu sinifdədir "Malların saxlanması və daşınması üçün istifadə olunan tara, qablaşmalar və konteynerlər" – 14 (Cədvəl 3).

*Cədvəl 3*

**2023-cü il üzrə Beynəlxalq sənaye nümunəsi təsnifatına əsasən, Azərbaycanda qüvvədə olan sənaye nümunələrinin paylanması** *(rezident)*

| Bölmə göstəricisi (indeksi) | Bölmənin adı | Sənaye nümunələ-rinin sayı |
|---|---|---|
| Sinif 01 | Qida məhsulları | 2 |
| Sinif 02 | Geyim, qalantereya | - |
| Sinif 03 | Səyahət aksessuarları, futlyarlar, zontlar və digər siniflərə daxil olmayan şəxsi istifadə əşyaları | - |
| Sinif 04 | Şotka məhsulları | - |
| Sinif 05 | Parça və ya ədədlə olan tekstil məmulatları, süni və təbii təbəqə materialları | - |
| Sinif 06 | Mebel əşyaları | 2 |
| Sinif 07 | Digər siniflərə daxil olmayan ev əşyaları | - |
| Sinif 08 | Alətlər və metal məmulatları | - |
| Sinif 09 | Malların saxlanması və daşınması üçün istifadə olunan tara, qablaşmalar və konteynerlər | **14** |
| Sinif 10 | Saatlar, ölçü, nəzarət və həyəcan sistemi üçün digər cihazlar və alətlər | - |
| Sinif 11 | Bəzək əşyaları | 2 |
| Sinif 12 | Nəqliyyat vasitələri və qaldırıcı qurğular | - |
| Sinif 13 | Elektrik enerjisinin | - |

| | | |
|---|---|---|
| | alınması, paylanması və ya çevrilməsi üçün avadanlıqlar | |
| Sinif 14 | Məlumatın axtarəşı, yazılması, ötürülməsi və təkmilləşdirilməsi üçün avadanlıq | - |
| Sinif 15 | Digər siniflərə daxil olma-yan maşın və dəzgahlar | - |
| Sinif 16 | Foto və kinematoqrafiya avadanlıqları, optik cihazlar | - |
| Sinif 17 | Musiqi alətləri | - |
| Sinif 18 | Mətbəə və ofis avadanlığı | - |
| Sinif 19 | Dəftərxana və ofis ləvazimatları, bədii yaradıcılıq və təhsil üçün material və ləvazimatlar | 1 |
| Sinif 20 | Ticarət və reklam üçün avadanlıqlar, göstərici nişanlar | - |
| Sinif 21 | Oyunlar, oyuncaqlar, çadırlar, tentlər və idman malları | - |
| Sinif 22 | Silahlar, pirotexnika məhsulları, ovçuluq və balıqçılıq ləvazimatları, zərərvericiləri məhv etmək üçün qurğular | - |
| Sinif 23 | Maye və qazların paylan-ması üçün qurğular, sanitariya avadanlıqları, havanın isinməsi, ventil-yasiyası və kondisiyalaşdı-rılması üçün avadanlıqlar, bərk yanacaqlar | - |
| Sinif 24 | Tibbi və laboratoriya avadanlıqları | 2 |

| | | |
|---|---|---|
| Sinif 25 | Tikinti blokları, tikinti konstruksiyaları və onların elementləri | 4 |
| Sinif 26 | İşıqlandırma cihazları və qurğuları | - |
| Sinif 27 | Tütün məmulatları və siqaret çəkmək üçün ləvazimatlar | - |
| Sinif 28 | Əczaçılıq və kosmetika məhsulları, tualet məhsulları və vasitələri | - |
| Sinif 29 | Xilasetmə və bədbəxt hadisələrin qarşısının alınması üçün qurğular, avadanlıq və ləvazimatlar | - |
| Sinif 30 | Heyvanların saxlanması və qulluğu üçün məhsullar və avadanlıqlar | 1 |
| Sinif 31 | Digər siniflərə daxil olma-yan ərzaq və ya içkilərin hazırlanması üçün maşınlar və aparatlar | - |
| Sinif 32 | Qrafik simvollar və elementlər (loqotiplər), səthi dekorativ, motivlər, bəzəklər | 2 |
| **Yekun** | | **30** |

Qeyri-rezidentlər ən çox qüvvədə olan sənaye nümunələri 9-cu sinifdəki "Malların daşınmasında, manipulyasiya edilməsində və saxlanmasında istifadə olunan qablaşdırmalar, bağlamalar və konteynerlər” – 31 (Cədvəl 4).

*Cədvəl 4*

**2023-cü il üzrə Beynəlxalq sənaye nümunəsi təsnifatına əsasən, Azərbaycanda qüvvədə olan sənaye nümunələrinin paylanması** *(qeyri-rezident)*

| Bölmə göstəricisi (indeksi) | Bölmənin adı | Sənaye nümunələrinin sayı |
|---|---|---|
| Sinif 01 | Qida məhsulları | - |
| Sinif 02 | Geyim, qalantereya | - |
| Sinif 03 | Səyahət aksessuarları, futlyarlar, zontlar və digər siniflərə daxil olmayan şəxsi istifadə əşyaları | - |
| Sinif 04 | Şotka məhsulları | - |
| Sinif 05 | Parça və ya ədədlə olan tekstil məmulatları, süni və təbii təbəqə materialları | - |
| Sinif 06 | Mebel əşyaları | 1 |
| Sinif 07 | Digər siniflərə daxil olmayan ev əşyaları | 7 |
| Sinif 08 | Alətlər və metal məmulatları | 1 |
| Sinif 09 | Malların saxlanması və daşınması üçün istifadə olunan tara, qablaşmalar və konteynerlər | **31** |
| Sinif 10 | Saatlar, ölçü, nəzarət və həyəcan sistemi üçün digər cihazlar və alətlər | 1 |
| Sinif 11 | Bəzək əşyaları | **12** |
| Sinif 12 | Nəqliyyat vasitələri və qaldırıcı qurğular | 6 |
| Sinif 13 | Elektrik enerjisinin alınması, paylanması və ya çevrilməsi | 3 |

| | | |
|---|---|---|
| | üçün avadanlıqlar | |
| Sinif 14 | Məlumatın axtarəşı, yazılması, ötürülməsi və təkmilləşdirilməsi üçün avadanlıq | - |
| Sinif 15 | Digər siniflərə daxil olmayan maşın və dəzgahlar | 1 |
| Sinif 16 | Foto və kinematoqrafiya avadanlıqları, optik cihazlar | - |
| Sinif 17 | Musiqi alətləri | - |
| Sinif 18 | Mətbəə və ofis avadanlığı | 1 |
| Sinif 19 | Dəftərxana və ofis ləvazimatları, bədii yaradıcılıq və təhsil üçün material və ləvazimatlar | 2 |
| Sinif 20 | Ticarət və reklam üçün ava-danlıqlar, göstərici nişanlar | - |
| Sinif 21 | Oyunlar, oyuncaqlar, çadır-lar, tentlər və idman malları | 3 |
| Sinif 22 | Silahlar, pirotexnika məhsul-ları, ovçuluq və balıqçılıq ləvazimatları, zərərvericiləri məhv etmək üçün qurğular | - |
| Sinif 23 | Maye və qazların paylan-ması üçün qurğular, sanitari-ya avadanlıqları, havanın isinməsi, ventilyasiyası və kondisiyalaşdırılması üçün avadanlıqlar, bərk yanacaqlar | 2 |
| Sinif 24 | Tibbi və laboratoriya avadanlıqları | 1 |
| Sinif 25 | Tikinti blokları, tikinti konstruksiyaları və onların elementləri | 2 |

| | | |
|---|---|---|
| Sinif 26 | İşıqlandırma cihazları və qurğuları | - |
| Sinif 27 | Tütün məmulatları və siqaret çəkmək üçün ləvazimatlar | - |
| Sinif 28 | Əczaçılıq və kosmetika məhsulları, tualet məhsulları və vasitələri | - |
| Sinif 29 | Xilasetmə və bədbəxt hadisələrin qarşısının alınması üçün qurğular, avadanlıq və ləvazimatlar | - |
| Sinif 30 | Heyvanların saxlanması və qulluğu üçün məhsullar və avadanlıqlar | - |
| Sinif 31 | Digər siniflərə daxil olmayan ərzaq və ya içkilərin hazırlanması üçün maşınlar və aparatlar | - |
| Sinif 32 | Qrafik simvollar və elementlər (loqotiplər), dekorativ səthi dekorativ motivlər, bəzəklər | 3 |
| **Yekun** | | **77** |

Haaqa Konvensiyasına görə, ən çox sayda sənaye nümunəsi 10-cu sinif "Saatlar, ölçü, nəzarət siqnalizasiya üçün alətlər və digər cihazlar" - 579 məhsula aiddir (Cədvəl 5).

*Cədvəl 5*

**2023-cü ildə Haaqa konvensiyasına əsasən, qüvvədə olan sənaye nümunələrinin paylanması**

| Bölmə göstəricisi (indeksi) | Bölmənin adı | Sənaye nümunələrinin sayı |
|---|---|---|
| Sinif 01 | Qida məhsulları | 12 |
| Sinif 02 | Geyim, qalantereya | 86 |
| Sinif 03 | Səyahət aksessuarları, futlyarlar, zontlar və digər siniflərə daxil olmayan şəxsi istifadə əşyaları | 64 |
| Sinif 04 | Şotka məhsulları | 5 |
| Sinif 05 | Parça və ya ədədlə olan tekstil məmulatları, süni və təbii təbəqə materialları | 4 |
| Sinif 06 | Mebel əşyaları | 21 |
| Sinif 07 | Digər siniflərə daxil olmayan ev əşyaları | 24 |
| Sinif 08 | Alətlər və metal məmulatları | 24 |
| Sinif 09 | Malların daşınmasında, manipulyasiya edilməsində və saxlanmasında istifadə olunan qablaşdırmalar, bağlamalar və konteynerlər | 169 |
| Sinif 10 | Saatlar, ölçü, nəzarət siqnalizasiya üçün alətlər və digər cihazlar | 607 |

| | | |
|---|---|---|
| Sinif 11 | Bəzək əşyaları | 264 |
| Sinif 12 | Nəqliyyat vasitələri və qaldırıcı qurğular | 72 |
| Sinif 13 | Elektrik enerjisinin alınması, paylanması və ya çevrilməsi üçün avadanlıqlar | 34 |
| Sinif 14 | Yazı, telekommunikasiya və ya məlumatların işlənməsi üçün avadanlıqlar | 34 |
| Sinif 15 | Digər siniflərə daxil olmayan maşın və dəzgahlar | 18 |
| Sinif 16 | Foto və kinematoqrafiya avadanlıqları, optik cihazlar | 55 |
| Sinif 17 | Musiqi alətləri | 1 |
| Sinif 18 | Mətbəə və ofis avadanlığı | 5 |
| Sinif 19 | Dəftərxana və ofis ləvazimatları, bədii yaradıcılıq və təhsil üçün material və ləvazimatlar | 24 |
| Sinif 20 | Ticarət və reklam üçün avadanlıqlar, göstərici nişanlar | 17 |
| Sinif 21 | Oyunlar, oyuncaqlar, çadırlar, tentlər və idman malları | 23 |
| Sinif 22 | Silahlar, pirotexnika məhsulları, ovçuluq və balıqçılıq ləvazimatları, zərərvericiləri məhv etmək üçün qurğular | 4 |

| | | |
|---|---|---|
| Sinif 23 | Maye və qazların paylanması üçün qurğular, sanitariya avadanlıqları, havanın isinməsi, ventilyasiyası və kondisiyalaşdırılması üçün avadanlıqlar, bərk yanacaqlar | 17 |
| Sinif 24 | Tibbi və laboratoriya avadanlıqları | 19 |
| Sinif 25 | Tikinti blokları, tikinti konstruksiyaları və onların elementləri | 17 |
| Sinif 26 | İşıqlandırma cihazları və qurğuları | 16 |
| Sinif 27 | Tütün məmulatları və siqaret çəkmək üçün ləvazimatlar | 7 |
| Sinif 28 | Əczaçılıq və kosmetika məhsulları, tualet məhsulları və vasitələri | 15 |
| Sinif 29 | Xilasetmə və bədbəxt hadisələrin qarşısının alınması üçün qurğular, avadanlıq və ləvazimatlar | 2 |
| Sinif 30 | Heyvanların saxlanması və qulluğu üçün məhsullar və avadanlıqlar | 1 |
| Sinif 31 | Digər siniflərə daxil olmayan ərzaq və ya içkilərin hazırlanması üçün maşınlar və aparatlar | - |
| Sinif 32 | Qrafik simvollar və | 50 |

| | | |
|---|---|---|
| | elementlər (loqotiplər), dekorativ  səthlər, bəzək əşyaları | |
| **Yekun** | | **1711** |

2022-ci ildən Avrasiya Patent Təşkilatında sənaye nümunələrinin qeydiyyatına başlanmışdır. Azərbaycanın Milli Ofisi tərəfindən bu təşkilata 4 iddia sənədi göndərilmişdir.

## 2. Coğrafi göstəricilər

Coğrafi göstərici – əmtəələrdə istifadə olunan və onun xüsusi keyfiyyətini, nüfuzunu və başqa xassələrini əsasən coğrafi mənşə ilə əlaqədar əks etdirən işarədir. Ümumi mənada coğrafi göstərici əmtəənin yarandığı ərazinin adından ibarətdir. Tipik bir nümunə olaraq, iqlim və torpaq kimi yerli xüsusi coğrafi amillərlə şərtləndirilən kənd təsərrüfatı məhsullarını göstərmək mümkündür. Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) coğrafi göstəricilərin mühafizəsini 1883-cü il tarixli sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyasının vasitəsi və 20 may 2015-ci ilin mənşə yerlərinin adları və coğrafi göstəricilər haqqında Lissabon anlaşmasının Cenevrə aktı ilə tənzimləyir. Bundan başqa Əqli mülkiyyət hüquqlarının ticari aspektləri haqqında Anlaşmanın (TRİPS) 22-24-cü maddələri Ümumdünya Ticarət Təşkilatının (ÜTT) çərçivəsində coğrafi göstəricilərin beynəlxalq qorunmasını tənzimləyir.

Ümumilikdə 93 milli və regional hakimiyyət orqanlarından ÜƏMT tərəfindən alınan məlumata əsasən 2021-ci ildə 63.600 qorunan coğrafi gösrəci mövcuddur. Ən çox coğrafi göstərici Çində (9052), Macarıstanda (7743), Çex Respublikasında (6272), Slovakiya (6112) və Bosniya və Herseqovinada (6087) mövcuddur.

Bu coğrafi göstəricilərin 51%-i sərab və spirtli içkilər, 43,6%-i kənd təsərrüfatı və qida məhsulları, 3,9 %-i isə sənətkarlıq məhsullarının, 1,4%, digərilərinin 0,1 % isə xidmətlərin payına düşür.

Dünya üzrə şərablar və tünd (sərt) spirtli içkilər üzrə ən çox coğrafi göstərici Portuqaliya (3846), Bolqarıstan (3730), Almaniya (3650), Yunanıstan (3290), İsveçrə (425) aiddir. Kənd təsərrüfatı və ərzaq məhsulları üzrə coğrafi göstəricilərdə isə Portuqaliya (2052), Bolqarıstan (2028), Almaniya (1919) ilklərdə yer alırlar. (Mənbə: ÜƏMT Statistika Verilənlər Bazası,Sentyabr 2022)

Azərbaycanda 2018–2023-cü illər ərzində coğrafi göstəricinin alınması üçün 14 iddia sənədi daxil olmuşdur, 23 coğrafi göstərici qeydə alınmışdır (Cədvəl 6). 2023-cü il ərzində coğrafi göstəricilər almaq üçün ümumiyyətlə heç bir müraciət olunmamışdır (Diaqram 6). Qeydə alınan 23 coğrafi göstərici rezidentlər tərəfindən alınıb.

2023-cü ilə qüvvədə olan coğrafi göstəricilərin sayı 42-dir. Onlardan 10-u qeyri-rezidentlərə, 32-i rezidentlərə aiddir (Diaqram 7). Qeyri rezidentlərdən Gürcüstan-6, Rusiya-3, İtaliya-1 ölkələrinə məxsusdur (Diaqram 8).

2023-cü ilin sonuna qüvvədə olan coğrafi göstəricilər Əlavə 4. 2-də təqdim edilir.

Bizim fikrimizcə, hal-hazırda Azərbaycanda coğrafi göstərici istifadəsi yönündə aparılan işləri daha da fəallaşdırmaq zəruridir. Məlum olduğu kimi, ölkəmizi ziyarət edən turistlərin sayı gündən günə artır. Turistlər ziyarət etdiyi ölkədən yadigar olaraq xərclədiyi müəyyən məbləğin müqabilində hər hansı bir faydalı əşya, suvenir və s. dostlara, qohumlara almağa çalışır. Təbii ki, qeydiyyata alınmış əmtəə mənşəyi adlarının siyahısına milli məmulatların (Lahıcın sənətkarlıq nümunələri, şərablar, şirniyyatlar və s.) xüsusi keyfiyyətini

səciyyələndirən məhsulları da daxil etmək mümkün olardı. Nəticə etibarı ilə, coğrafi göstəricilərin istifadəsinin fəallaşdırılması həm sahibkarlığın (yolüstü xidmətlər, mehmanxana biznesi), qastronomik və ekoturizmin, sənətkarlığın inkişafına təkan verə bilərdi ki, bu da həm daxili, həm xarici bazarın təminatı və tələbatı məsələlərində, xarici investisiyaların cəlbində mühüm rol oynayan amildir.

*Cədvəl 6*

**Azərbaycan üzrə coğrafi göstəricilərlə bağlı mütləq göstəricilərin dinamikası** *(əd.)*

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| *1. İddia sənədləri, ümumi o cümlədən* | 5 | - | - | 1 | 8 | - |
| *- yerli (rezident)* | 5 | - | - | 1 | 8 | - |
| *- xarici (qeyri-rezident)* | | - | - | - | - | - |
| *2. Verilən şəhadətnamələrin sayı, ümumi o cümlədən* | 12 | 6 | 1 | - | 2 | 2 |
| *- yerli (rezident)* | 12 | 6 | 1 | - | 2 | 2 |
| *- xarici (qeyri-rezident)* | - | - | - | - | - | - |
| *3. Qüvvədə olan coğrafi göstəricilər* | 35 | 41 | 42 | 42 | 40 | 42 |

*Diaqram 6*

**Azərbaycan üzrə coğrafi göstəricilərlə bağlı mütləq göstəricilərin dinamikası***(əd.)*




*Diaqram 7*

**Azərbaycan üzrə 2023-cü ildə qüvvədə olan coğrafi göstəricilərin paylanması** *(əd.)*



*Diaqram 8*

**2023-cü ildə qeyri-rezidentlərin qüvvədə olan coğrafi göstəricilərin ölkələr üzrə paylanması** *(əd.)*



## 3. Əmtəə nişanı

Əmtəə nişanı – bazar iqtisadiyyatının ayrılmaz tərkib hissəsi, malların və xidmətlərin fərdiləşdirmə vasitəsidir. Əmtəə nişanı (və ya ticarət nişanı) istehsalçı ilə istehlakçı arasında özünəməxsus əlaqə olmaqla, alıcıların diqqətini nişanlı mallara cəlb etmək üçün aktiv vasitə kimi xidmət edir və istehlakçılara ehtiyac duyduqları müəyyən bir istehsalçının mallarını seçməyə imkan verir.

Əmtəə nişanları iqtisadiyyat və kommersiyada müəyyən funksiyaları yerinə yetirir: fərqləndirici, məlumatverici, reklamverici, qoruyucu, zəmanət, psixoloji.

İstehsalçının, təchizatçının və ya ticarət müəssisəsinin məhsulunu ayırmaq və fərdiləşdirmək əmtəə nişanın əsas funksiyasıdır, istehsalçının mallarını digər istehsalçının oxşar mallarından ayırmağa kömək edir. Bu fərqləndirən funksiya əmtəə nişanının əsas funksiyasıdır. Əmtəə nişanı həm onun sahibi, həm də istehlakçı üçün mühüm əhəmiyyət kəsb edir. Və həmçinin istehlakçının önəm verdiyi şirkətin məhsulunu seçməkdə yardımçı olur.

Əmtəə nişanı məlumatvermə funksiyasının fərqləndirmə funksiyası ilə sıx bağlıdır. Bu, nişan istehlakçıya malların keyfiyyəti ilə yanaşı istehsalçı haqqında da məlumat verməyə kömək etməsi ilə özünü göstərir. Əmtəə nişanın məlumatvermə funksiyasının əhəmiyyəti, işarənin müəssisənin firma adının və ya tanınmış monoqramının davamı və variantı olması ilə vurğulanır.

Reklamverici funksiya əmtəə nişanı üçün ən vacib funksiyalarından biridir. Ticarət reklamı informasiya

vasitəsidir, alıcılara istədikləri məhsulları seçmələrinə köməklik edir. Reklam müəssisələrə istehsal etdikləri məhsulların satışına köməklik etməlidir.

Əmtəə nişanının qoruyucu funksiyası nişan sahibinin müstəsna (inhisar) hüququndan istifadə etməyindən irəli gəlir. Bu funksiya istehsal olunan məhsulların bazarda qorunmasına xidmət edir (xüsusilə xarici) və haqsız rəqabətə qarşı mübarizədə istifadə olunur. Bu səbəbdən əmtəə nişanı xarici ticarətdə böyük əhəmiyyətə malikdir.

Zəmanət funksiyası malların uyğun keyfiyyətinin təmin edilməsində özünü göstərir. Bu funksiyanın yerinə yetirilməsi yalnız malların keyfiyyətində daima yaxşılaşma ilə mümkündür. Əmtəə nişanı istehlakçısının ona məlum olan məhsulun yüksək keyfiyyətli xüsusiyyətlərini əlaqələndirdiyi məhsulun təyin edilməsidir. Bu xüsusiyyətləri görən və ya seçən istehlakçı, bu xüsusiyyətləri məhsulun təchiz olunduğu əmtəə nişanı ilə əlaqələndirir.

Əmtəə nişanının psixoloji funksiyası onun reklam və zəmanət funksiyaları ilə sıx əlaqəlidir. Bu əlaqə ondan ibarətdir ki, bazarda tanınmış əmtəə nişanı  olan məhsul alıcının ən keyfiyyətli olduğuna inam yaradır. Əmtəə nişanın sahibi nişanın psixoloji funksiyanı yerinə yetirməsində maraqlıdırsa, istehsal etdiyi malların davamlı olaraq keyfiyyətli olmasına və əmtəə nişanın yaxşı dizayn edilmiş və təsirli şəkildə reklam olunmasına diqqət yetirməlidir.

2018-2023-cü illər üzrə Azərbaycanda əmtəə nişanlarının göstəricilərinin statistikasını nəzərdən keçirək (Cədvəl 7) (Diaqram 9).

2018-ci ildən 2023-cü ilədək olan dövrdə 13871 rezident və 4321 qeyri-rezident daxil olmaqla əmtəə nişanının dövlət qeydiyyatı üçün 18176 iddia sənədi daxil olmuşdur. 2018-2023-cü illər dövründə rezidentlər tərəfindən verilmiş əmtəə nişanlarında 1269-dan 3095-ə qədər artım olmuşdur. Yerli malların istehsal həcmində artım istiqamətində son tendensiyaları, yerli müəssisələr və fərdi sahibkarlar tərəfindən göstərilən xidmətlərin inkişafını müsbət dinamika təsdiq edir.

Təhlil göstərir ki, nəzərdən keçirilən dövrdə qeyri-rezident tərəfindən verilmiş müraciətlərin sayında 2018-ci ildə 689-dən 2023-cü ildə 784-ə qədər artma olmuşdur.

*2018-2023-cu illər üçün təqdim olunan iddia sənədi və əmtəə nişanı üçün verilən şəhadətnamə arasındakı Spirmen ranq korrelyasiya əmsalını hesablayaq.*

*Hesablamalar göstərir ki, eyni il ərzində təqdim olunan iddia sənədi ilə alınan şəhadətnamə arasında heç bir korrelyasiya əlaqəsi yoxdur (əmsal -0.1); gələn il təqdim olunmuş müraciət və alınan sertifikat arasındakı korrelyasiya əlaqəsi zəifdir -0,13-ə bərabərdir (laq 1 il); bir ildən sonra təqdim olunmuş iddia sənədi ilə alınan şəhadətnamə arasındakı korrelyasiya əlaqəsi orta və 0,57-dir (laq 2 il ).*

*Beləliklə, aparılmış hesablamalardan, təqdim edilən iddia sənədlərinin sayının bir ildən (laq 2 il) sonra verilmiş əmtəə nişanı şəhadətnamələrin sayı ilə orta korrelyasiya olduğu, yəni milli ofisdə bir əmtəə nişanı üçün verilmiş bir iddia sənədinə baxılma müddətinin 4-6 ay olduğu qənaətinə gəlmək olar.*

Xarici təcrübə göstərir ki, ümumiyyətlə əmtəə nişanının qeydiyyatı proseduru Rusiyada 8-10 ay, Ukraynada 16-18 ay, Belarusiyada 10-12 ay, Qazaxıstanda 12 ay çəkir. Avropa Birliyində əmtəə nişanın qeydiyyat müddəti ortalama 7-8 ay, Almaniyada isə 6-10 aydır. Bu rəqəm Azərbaycanda müvafiq dövr üçün orta statistik olaraq 4-6 ay təşkil edir.

Azərbaycanda əmtəə nişanı üçün şəhadətnamənin əldə edilməsi obyektiv səbəblərə görə daha çox vaxt aparır, ona görə ki, bir çox hallarda iddiaçıların təqdim etdiyi sənədlər tələblərə uyğun olmur, eləcə də həmin dövrdə ölkədə aparılan idarəetmə strukturunun təkmilləşdirilməsi ilə əlaqəlidir.

2018-ci ildən 2023-cü ilədək 11 678 əmtəə nişanı qeydiyyata alınıb, yəni hər 1,5 iddia ərizəsi üçün 1 əmtəə nişanı üçün şəhadətnamə verilib. Bu müddət ərzində 8046 əmtəə nişanı qeydiyyata alınaraq rezidentlərə, 3632 əmtəə nişanı isə qeyri-rezidentlərə verilmişdir. Bu onu göstərir ki, ölkədə sahibkarlıq fəaliyyəti subyektlərinin rəqabətliliyini və öz əmtəə nişanının mövcudluğu vasitəsilə bazara mövqe tutmaq üçün daha fəal və istəkli olmağı stimullaşdıran sahibkarlıq və investisiyalar üçün əlverişli mühit yaradılıb.

Təhlil olunan dövr üçün aşağıdakı orta illik göstəricilər göstərilə bilər: hər il orta hesabla rezidentlər tərəfindən 2311 və qeyri-rezidentlər tərəfindən 720 əmtəə nişanı üçün iddia sənədi təqdim olunur; orta hesabla ildə 1341 rezident və 605 qeyri-rezident olmaqla 1946 əmtəə nişanı qeydiyyata alınır.

*Cədvəl 7*

**Azərbaycan üzrə 2018-2023-cü illərdə əmtəə nişanları ilə bağlı mütləq göstəricilərin dinamikası** *(əd.)*

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| *1. İddia sənədləri, ümumi, o cümlədən* | 1958 | 2322 | 2288 | 3268 | 4478 | 3879 |
| *- yerli (rezident)* | 1269 | 1540 | 1662 | 2450 | 3855 | 3095 |
| *- xarici (qeyri-rezident)* | 689 | 782 | 626 | 818 | 623 | 784 |
| *2. Verilən şəhadətnamələrin sayı, ümumi, o cümlədən* | 1070 | 1114 | 1043 | 2379 | 2927 | 3145 |
| *- yerli (rezident)* | 720 | 642 | 482 | 1453 | 2208 | 2541 |
| *- xarici (qeyri-rezident)* | 350 | 472 | 561 | 926 | 719 | 604 |
| *3. Qüvvədə olan əmtəə nişanları* | 21783 | 22378 | 21770 | 23627 | 25822 | 26892 |
| *4. Lisenziya müqavilələri* | 12 | 3 | 18 | 5 | 8 | 21 |

*Diaqram 9*

**Azərbaycan üzrə əmtəə nişanları ilə bağlı mütləq göstəricilərin dinamikası** *(əd.)*




*Diaqram 10*

***Azərbaycanda Madrid proseduruna əsasən, ən çox qüvvədə olan əmtəə nişanlarına aid ölkələr***

*(ÜƏMT-nın məlumatına görə, Azərbaycanda 31 yanvar 2024-cü il üçün ölkələr üzrə qüvvədə olan əmtəə nişanlarının sayı **55713**-dür)*



Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı 1989-cu il Beynəlxalq Qeydiyyat haqqında Madrid Sazişinə dair Protokola uyğun olaraq, həyata keçirilir və Madrid Sistemi adlanır. Sistem ÜƏMT tərəfindən idarə olunur. Madrid Sistemi sahibkarlara öz ölkələrinin əmtəə nişanları üzrə milli ofisə edilən tək bir müraciətlə onlara məxsus olan əmtəə nişanlarının bir neçə ölkədə qorunma imkanını təqdim edir. Madrid Sistemi eyni zamanda əmtəə nişanının sonrakı idarə edilməsini də xeyli asanlaşdırır, çünki sonrakı dəyişiklikləri və ya yenilənmələri tək bir prosedur mərhələsində qeydiyyata almaq mümkündür. Bundan sonra həmçinin qorunma siyahısında əlavə ölkələr də göstərilə bilər.

Mənşə ölkəsinin ofisinə yalnız bir iddia sənədi verməklə, ərizəçinin seçimi ilə bir neçə dövlətdə eyni vaxtda bir əmtəə nişanının qanuni qorunmasını əldə etmək mümkündür. Madrid Sazişinə 120 üzv dövlət daxildir. Azərbaycan üzrə 2018-2023-cü illər üzrə beynəlxalq əmtəə nişanları ilə bağlı mütləq göstəricilərin dinamikası 8-ci cədvəldə verilmişdir.

## Azərbaycan üzrə (2018-2023-cü illər) beynəlxalq əmtəə nişanları ilə bağlı mütləq göstəricilərin dinamikası

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə daxil olan iddia sənədləri | 3484 | 3508 | 3188 | 3058 | 3371 | 3314 |
| İmtina edilmiş iddia sənədləri | 288 | 154 | 415 | 440 | 236 | 317 |

Bu illərdə əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə 19923 iddia sənədi daxil olmuşdur. Onlardan 1850 ədədinə ekspertizannın imtina qərarı verilmişdir.

2024-cü ilin 31 yanvar ayına Azərbaycanda Madrid proseduru çərçivəsində 55 713 əmtəə nişanı qüvvədədir. Əvvəlki ilə nisbətən 803 əmtəə nişanı artım olmuşdur.

Azərbaycanda ən çox əmtəə nişanı Rusiyadan qeydiyyata alınıb – 9923, Almaniyadan – 8396, Türkiyədən – 6101, İsveçrədən – 6093 və Çindən-5967 ədəd (Diaqram 10).

Əmtəə nişanlarının qeydiyyatı sahəsindəki Beynəlxalq əməkdaşlıq bu sahədəki fəaliyyətlərin sənədlərinin unifikasiyasını müəyyənləşdirdi. Beləliklə, 15 iyun 1957-ci il tarixində Əmtəə və Xidmətlərin Beynəlxalq Təsnifatına (ƏXBT) uyğun olaraq, milli və beynəlxalq səviyyələrdə əmtəə nişanlarının qeydiyyatını təmin edən Nitca Sazişi bağlanmışdır.

Nitca Sazişinin bağlanması, ilk növbədə, fərqli ölkələrdə əmtəə və xidmətlərin təsnifatının fərqli prinsiplərə söykənməsi ilə əlaqədar idi. Bundan əlavə, hər il əvvəllər təsnif olunmayan xeyli sayda yeni məhsul və xidmət təqdim edilir. Bütün bunlar ekspertiza prosedurunda oxşar əmtəə nişanlarının axtarışını çətinləşdirmişdir.

Nitca Sazişi nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin vahid bir təsnifatını müəyyən edir ki, bu da onların patent idarələri tərəfindən axtarışını və ekspertizasını xeyli asanlaşdırır. Yarandığı gündən etibarən, təsnifat əmtəə və xidmətlər bazarındakı dəyişkən tendensiyalara uyğun olaraq, daima yenilənir və təkmilləşdirilir. Hazırda 11-ci nəşr qüvvədədir.

ƏXBT 45 sinifdən ibarətdir: 1-dən 34-ə qədər sinif əmtəədir, 35-dən 45-ə qədər sinif isə – xidmətlərdir. ƏXBT siniflərinin başlıqları əmtəə və xidmətlərin hansı sahələrə aid olduğunu ən ümumi şəkildə göstərir. Hər sinifdə əmtəə və xidmətlərin siyahısı əlifba sırası ilə "a"

dan "z"-ə qədər düzülür. Əlavə məlumat olaraq, siyahıda hər sinif üçün izahatlar yer alır.

## ƏMTƏƏ VƏ XİDMƏTLƏRİN BEYNƏLXALQ TƏSNİFATI

*(ƏXBT 11)*

*Əmtəə və xidmətlərin siniflərinin siyahisi*

| Sinif indeksi | Məzmun |
|---|---|
| Sinif 01 | Sənaye, elm, fotoqrafiya, kənd təsərrüfatı, bağçılıq və meşəçilikdə istifadə üçün nəzərdə tutulan kimyəvi məhsullar; emal olunmamış sintetik qatranlar, emal olunmamış plastik materiallar; od söndürmək üçün və yanğın əleyhinə tərkiblər; metalların möhkəmlənməsi və lehimlənməsi üçün preparatlar; dəri və heyvan dərisinin aşılanması üçün maddələr; sənaye məqsədləri üçün yapışqan maddələr; pasta formasında mastika və digər doldurucular; kompostlar, gübrələr, peyin; sənaye və elmi məqsədlər üçün bioloji preparatlar. |
| Sinif 02 | Boyalar, əlif yağları, laklar; metalları korroziyadan və ağacı xarab olmaqdan mühafizə edən qoruyucu vasitələr; boyaq maddələri; mətbəə mürəkkəbi, nişanlama və qravür üçün mürəkkəb; emal olunmamış təbii qatranlar; bədii-dekorativ məqsədlər və bədii mətbuat üçün istifadə edilən təbəqə və tozvari metallar. |
| Sinif 03 | Qeyri-müalicəvi kosmetik və tualet məhsulları; dişlərin təmizlənməsi üçün qeyri-müalicəvi |

| | |
|---|---|
| | vasitələr; ətriyyat məhsulları, efir yağları; ağartma üçün preparatlar və yuma üçün digər maddələr; təmizləmə, cilalama (pardaqlama), yağsızlaşdırma və abraziv emal üçün preparatlar.A24 |
| Sinif 04 | Sənaye yağları, sürtküləri və mumları; sürtkü materialları; tozu udmaq, islatmaq və bağlamaq üçün tərkiblər; yanacaqlar və işıqlandırıcı materiallar; piltələr (fitillər) və işıqlandırma üçün şamlar. |
| Sinif 05 | Əczaçılıq məhsulları, tibbi və baytarlıq preparatları; tibbi məqsədlər üçün gigiyena preparatları; pəhriz qidası və tibbi və ya baytarlıq məqsədləri üçün maddələr, uşaq qidası; insanlar və heyvanlar üçün qida əlavələri; plastırlar, sarğı materialları; dişləri plomblamaq və diş surətlərini hazırlamaq üçün materiallar; dezinfeksiyaedici vasitələr; ziyanvericiləri məhv etmək üçün preparatlar; fungisidlər, herbisidlər |
| Sinif 06 | Adi metallar və onların xəlitələri filizlər; metal tikinti materialları; səyyar metal konstruksiyalar və tikililər; qeyri-elektrik metal troslar və məftillər; xırda metal və dəmir məmulatlar, saxlanma və daşınma üçün konteynerlər; seyflər. |
| Sinif 07 | Maşınlar, dəzgahlar, mexaniki idarə olunan alət; mühərriklər, yerüstü nəqliyyat vasitələri üçün nəzərdə tutulanlar istisna olmaqla; birləşmələr və ötürmə elementləri, yerüstü nəqliyyat vasitələri üçün nəzərdə tutulanlar istisna olmaqla; kənd təsərrüfatı alətləri, əl ilə idarə edilən alətlərdən başqa; yumurtalar üçün inkubatorlar; ticarət avtomatları |

| | |
|---|---|
| Sinif 08 | Əl vasitələri və alətlər; bıçaq məmulatları, çəngəllər və qaşıqlar; soyuq silah; ülgüclər. |
| Sinif 09 | Elmi, tədqiqat, naviqasiya, geodeziya, fotoqrafiya, kinematoqrafiya, audiovizual, optika, çəkmə, ölçmə, siqnalizasiya, axtarış, aşkarlama, sınaq, xilasetmə və tədris üçün cihaz və alətlər; elektrikin ötürülməsi, paylanması, transformasiyası, toplanması, tənzimlənməsi və ya paylanmasının və ya istifadəsinin idarə edilməsi üçün cihaz və alətlər; səsin, təsvirin və ya məlumatların yazılması, ötürülməsi, canlandırılması və ya işlənməsi üçün cihazlar və alətlər; yazılmış və ya yüklənən daşıyıcılar, proqram təminatı, rəqəmsal və ya analoq məlumatların yazılması və saxlanması üçün boş daşıyıcılar; metal pul sikkələrilə işləyən aparatlar üçün mexanizmlər; kassa aparatları, hesablayıcı maşınlar, kompüterlər və kompüter periferiyası; dalğıc hidrokostyumları, dalğıclar üçün maskalar, qulaq tıxacları, əlcəklər, dalğıc və üzgüçülər üçün burun sıxacları, suyun altında üzmək üçün nəfəs aparatları; od söndürmək üçün avadanlıq. |
| Sinif 10 | Cərrahi, tibbi, stomatoloji və baytarlıq cihaz və alətləri; əl-ayaq, göz və diş protezləri; ortopedik məmulatlar; tikiş qoymaq üçün materiallar; sağlamlıq imkanları məhdud olan insanlar üçün nəzərdə tutulmuş terapevtik və köməkçi avadanlıqlar; masaj üçün cihazlar; körpə yaşında olan uşaqlar üçün aparatlar, avadanlıqlar və məmulatlar; cinsi aktivlik üçün aparatlar, cihazlar və mallar. |
| Sinif 11 | İşıqlandırma, qızdırma, soyutma, buxar |

| | |
|---|---|
| | əldəetmə, qidanın hazırlanması, qurutma, havalandırma, su təchizatı və sanitariya məqsədləri üçün mexanizmlər və qurğular. |
| Sinif 12 | Nəqliyyat vasitələri; quruda, suda və havada hərəkət edən aparatlar. |
| Sinif 13 | Odlu silah; döyüş sursatı və mərmilər; partlayıcı maddələr; fişənglər. |
| Sinif 14 | Nəcib metallar və onların xəlitələri; zərgərlik məmulatları, bijuteriya, qiymətli və yarı qiymətli daşlar; saatlar və xronometrik cihazlar. |
| Sinif 15 | Musiqi alətləri; püpitrlər və musiqi alətləri üçün dayaqlar; dirijor çubuqları. |
| Sinif 16 | Kağız, karton; çap məhsulları; cildləmə işləri üçün materiallar; fotoşəkillər; yazı və kağız materialları və ofis ləvazimatları, mebel istisna olmaqla; dəftərxana və məişət məqsədləri üçün yapışqan maddələr; rəssamlar üçün ləvazimatlar və rəssamlıq üçün materiallar; fırçalar; tədris materialları və əyanı vəsaitlər; qablaşdırma və paketləmə üçün plastik listlər, plyonka və torbalar; şriftlər, mətbəə klişesi. |
| Sinif 17 | Emal olunmayan və qismən emal olunmuş kauçuk, rezin, quttaperça, asbest, slyuda və bu materialların əvəzediciləri; istehsalda istifadə olunan basma ilə alınan plastik və rezin; kəpitkələmə, sıxlaşdırma və izolyasiya üçün materiallar; qeyri-metal elastik borular. |
| Sinif 18 | Dəri və onun təqlidi; heyvan dəriləri; daşınma üçün baqaj məmulatları və çantalar; yağış və gün çətirləri; çəliklər; qırmanclar, qamçılar, at yəhər-qayışı və sərraclıq məmulatları; heyvanlar üçün xaltalar, qayışlar və geyim. |
| Sinif 19 | Qeyri-metal tikinti materialları; tikinti |

| | |
|---|---|
| | məqsədləri üçün qeyri-metal sərt borular; asfalt, qatranlar, qudron və bitum; qeyri-metal səyyar konstruksiyalar və tikililər; qeyri-metal abidələr. |
| Sinif 20 | Mebel, güzgülər, şəkillər üçün çərçivələr; saxlama və ya daşınma üçün metal olmayan qablar; emal edilməyən və ya qismən emal edilən buynuz, sümük, balina bığı, sədəf; balıqqulağı; lülədaşı; kəhrəba. |
| Sinif 21 | Ev və mətbəx əşyaları və qab-qacaq; çəngəllər, bıçaqlar və qaşıqlar istisna olmaqla bişirmə üçün dəstlər və qabqacaq; daraqlar və süngərlər; fırçalar istisna olmaqla, şotkalar; şotka məmulatları üçün materiallar; təmizlik və yığışdırma işləri üçün ləvazimatlar; emal olunmamış və ya qismən emal olunmuş şüşə, tikinti şüşəsi istisna olunmaqla; şüşə, çini və saxsıdan məmulatlar. |
| Sinif 22 | Kanatlar, kəndirlər, ciyələr; torlar; çadırlar, talvarlar; toxuma (tekstil) və ya sintetik materiallardan hazırlanmış tentlər; yelkənlər; qablaşdırılmamış malların daşınması və saxlanması üçün kisələr; doldurma materialları (kağız, karton, rezin və plastik materiallardan olanlar istisna olunmaqla); toxuma (tekstil) lifli xammaldan və onların əvəzedicilərindən materiallar. |
| Sinif 23 | Toxuculuq (tekstil) sapları və iplik. |
| Sinif 24 | Toxuma parçalar (tekstil) və onun əvəzediciləri; məişətdə istifadə üçün ağlar (dəyişək); toxuma (tekstil) və ya plastik materiallardan pərdələr |
| Sinif 25 | Geyim, ayaqqabı, baş geyimləri. |
| Sinif 26 | Krujeva, bağ və tikmələr, şəridlər və lentlər; |

| | |
|---|---|
| | düymələr, basma düymələr, qarmaqlar və qarqarlar, sancaqlar və iynələr; süni güllər; saçlar üçün bəzəklər; süni saçlar. |
| Sinif 27 | Xalçalar, həsirlər, ayaqaltılar, linoleum və döşəmə üçün digər örtüklər; toxuma (tekstildən) olmayan divar kağızları və üzlük materiallar . |
| Sinif 28 | Oyunlar, oyuncaqlar; video oyunlar üçün aparatlar; gimnastika və idman məhsulları; küknar ağacı (Milad bayramı) üçün bəzəklər |
| Sinif 29 | Ət, balıq, quş və ov quşu əti; ət ekstraktları; konservləşdirilmiş, qurudulmuş və bişirilmiş tərəvəzlər və meyvələr; jele, mürəbbə, kompotlar; yumurta; süd, pendir, yağ, qatıq və digər süd məhsulları; qida yağları və piyləri |
| Sinif 30 | Qəhvə, çay, kakao və qəhvə əvəzediciləri; düyü, makaron, əriştə, tapioka (manioka), saqo; un və buğda məhsulları; çörək, un və qənnadı məmulatları; şokolad; dondurma, sorbet və yeməli buzdan digər məhsullar; şəkər, bal, patka siropu; maya, qabartma tozları; duz, ədviyyatlar, konservləşdirilmiş otlar; sirkə, souslar və başqa dadlandırıcılar; buz (dondurulmuş su). |
| Sinif 31 | Xam və emal edilməmiş kənd təsərrüfatı, akvakultur, bağçılıq və meşəçilik məhsulları; emal edilməmiş və təkrar emaldan keçməmiş dənlər və toxumlar; təzə meyvələr, tərəvəzlər, təzə otlar; təbii bitkilər və çiçəklər; əkin üçün soğanaqlar, şitillər və toxumlar; canlı heyvanlar; heyvanlar üçün qida məhsulları və içkilər; səməni. |
| Sinif 32 | Pivələr; alkoqolsuz içkilər; mineral və qazlı sular; meyvə içkiləri və meyvə şirələri; içkilər |

| | |
|---|---|
| | hazırlamaq üçün siroplar və digər alkoqolsuz maddələr |
| Sinif 33 | Alkoqollu içkilər (pivə istisna olmaqla); içki hazırlamaq üçün alkoqollu məhsullar |
| Sinif 34 | Tütün və tütün əvəzediciləri; siqaretlər və siqarlar; elektron siqaretlər və siqaret çəkmək üçün buxarlandırıcılar; siqaret çəkmək üçün ləvazimatlar; kibritlər. |
| Sinif 35 | Reklam; biznes sahəsində idarəetmə, biznesin təşkili, biznes sahəsində inzibati fəaliyyət; ofis fəaliyyəti. |
| Sinif 36 | Maliyyə, kredit-pul və bank əməliyyatları; sığorta xidmətləri; daşınmaz əmlakla əməliyyatlar. |
| Sinif 37 | Tikinti xidmətləri; quraşdırma və təmir işləri üzrə xidmətlər; faydalı qazıntıların, neftin və qazın çıxarılması. |
| Sinif 38 | Telekommunikasiya xidmətləri. |
| Sinif 39 | Nəqletmə; malların qablaşdırılması və saxlanılması; səyahətlərin təşkili. |
| Sinif 40 | Materialların emalı; zibil və tullantıların təkrar emalı; havanın və suyun təmizlənməsi; poliqrafik xidmətlər; qida məhsulların və içkilərin konservləşdirilməsi. |
| Sinif 41 | Təhsil; təlim keçmə; əyləncələr; idman və mədəni-maarif tədbirlərinin təşkili. |
| Sinif 42 | Elmi və texnoloji xidmətlər, onlara aid olan elmi tədqiqatlar və işləmələr; sənaye analizi, sənaye elmi tədqiqatlar və sənaye dizaynı üzrə xidmətlər; keyfiyyətə nəzarət və autentifikasiya xidmətləri; kompüterlərin və proqram təminatların işlənib hazırlanması və təkmilləşdirilməsi |
| Sinif 43 | Ərzaq məhsulları və içkilər ilə təminetmə üzrə |

| | |
|---|---|
| | xidmətlər; müvəqqəti yaşayışın təmin edilməsi. |
| Sinif 44 | Tibbi xidmətlər; baytarlıq xidmətləri; insanlar və ya heyvanlar üçün gigiyena və kosmetika sahəsində xidmətlər; kənd təsərrüfatı, akvakultura, bostançılıq və meşəçilik sahəsində xidmətlər. |
| Sinif 45 | Hüquqi xidmətlər; Maddi sərvətlərin və fərdi şəxslərin fiziki mühafizəsi üzrə göstərilən təhlükəsizlik xidmətləri; Fərdi şəxslərin ehtiyaclarının ödənilməsi üzrə başqaları tərəfindən göstərilən fərdi və sosial xidmətlər. |

Rəqabətin artan miqyası, istehsalçıların və satıcıların potensial istehlakçıları istehsal olunan və satılan mallara cəlb etmək istəyi və mövcud alıcıları və müştəriləri saxlamağa olan ehtiyac əmtəə nişanlarından sahibkarlıqda istifadəsini əhəmiyyətli dərəcədə artırmışdır.

Əmtəə nişanları sənaye mülkiyyətinin bir obyekti olaraq, getdikcə iqtisadi inkişaf üçün güclü vasitəyə çevrilir. Azərbaycanlı sahibkarlar uğurlu biznesin ayrılmaz və vacib hissəsi kimi əmtəə və xidmətlər istehsalında brendinqin formalaşmasının vacibliyini dərk edirlər.

# 4. Əlavələr

## 4.1. *2023-cü ildə qüvvədə olan rezident hüquqi şəxslərin sənaye nümunələrinin siyahısı*

### “Azərsun Holdinq” MMC

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2014 0027 | “Azərsun Holdinq” MMC | Butulka | 09-01 | AZ |
| 2. | S 2016 0004 | “Azərsun Holdinq” MMC | Butulka | 09-01 | AZ |
| 3. | S 2016 0028 | “Azərsun Holdinq” MMC | Basmanaxışlı şəkil ilə absorbiyaedici kağız | 32-00 | AZ |
| 4. | S 2020 0031 | “Azərsun Holdinq” MMC | Absorbsiyaedici kağız üçün naxış | 32-00 | AZ |
| 5. | S 2022 0005 | “Azərsun Holdinq” MMC | Butulka | 09-01 | AZ |

## "PROLINE CHEMICALS" Məhdud Məsuliyyətli Cəmiyyəti

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2022 0008 | "PROLINE CHEMICALS" Məhdud Məsuliyyətli Cəmiyyəti | KANİSTR | 09-02 | AZ |
| 2. | S 2022 0009 | "PROLINE CHEMICALS" Məhdud Məsuliyyətli Cəmiyyəti | FLAKON | 09-01 | AZ |
| 3. | S 2022 0010 | "PROLINE CHEMICALS" Məhdud Məsuliyyətli Cəmiyyəti | FLAKON | 09-01 | AZ |
| 4. | S 2022 0011 | "PROLINE CHEMICALS" Məhdud Məsuliyyətli Cəmiyyəti | FLAKON | 09-01 | AZ |

## Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2023 0001 | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi | İçməli su üçün butulka | 09-01 | AZ |
| 2. | S 20232 0002 | Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi | İçməli su üçün butulka | 09-01 | AZ |

## "AzerGold" Qapalı Səhmdar Cəmiyyət

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2022 0013 | "AzerGold" Qapalı Səhmdar Cəmiyyət | Sikkə | 11-03 | AZ |
| 2. | S 2022 0014 | "AzerGold" Qapalı Səhmdar Cəmiyyət | Sikkə | 11-03 | AZ |

## “KÜRDƏMİR SÜD EMALI ZAVODU" MMC

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2016 0005 | KÜRDƏMİR SÜD EMALI ZAVODU" MMC | Kaşar pendiri | 01-03 | AZ |
| 2. | S 2016 0016 | KÜRDƏMİR SÜD EMALI ZAVODU" MMC | Kaşar pendiri | 01-03 | AZ |

## "ƏMİR" TEXNİKİ XİDMƏTLƏR MMC

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2022 0020 | "ƏMİR" TEXNİKİ XİDMƏTLƏR MMC | Antivarroa qurğusu | 30-99 | AZ |

## TAM XARİCİ İNVESTORA MƏXSUS "BAYCE LİMİTED" ŞİRKƏTİ

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2023 0004 | TAM XARİCİ İNVESTORA MƏXSUS "BAYCE LİMİTED" ŞİRKƏTİ | Çay üçün qablaşdırma qutusu (3 variant) | 09-03 | AZ |

## "Arkoz İnşaat Şirkəti"MMC

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2023 0010 | "Arkoz İnşaat Şirkəti"MMC | Pavilyon | 25-03 | AZ |

## "DELTA QRUP C.O." MMC

| Sıra N-si | Qeydiyyat N-si | Patent Sahibləri | Sənaye nümunəsinin adı | Beynəlxalq təsnifatı indeksi | Mənşə |
|---|---|---|---|---|---|
| 1. | S 2020 0023 | "DELTA QRUP C.O." MMC | QABLAŞDIRMA ÜÇÜN ETİKET | 19-08 | AZ |

## 4.2. 2023-cü ildə qüvvədə olan coğrafi göstəriciyə verilən şəhadətnamələrin siyahısı

| Sıra N-si | Qeydiyyat nömrəsi | Əmtəənin və xidmətin adı | Beynəlxalq təsnifatı indeksi | Şəhadətnamənin sahibi | Coğrafi göstəricinin Işarəsi |
|---|---|---|---|---|---|
| 1. | 001/01 | Mineral su | 32 | Obşestvo s oqraniçennoy otvetstvennostyu "Yessentukskiy zavod mineralnıx vod na KMV", 357600, Stavropolskiy kray, q. Yessentuki, ul. Pyatiqorskaya, 141-(RU) | **ЕССЕНТУКИ № 17** |
| 2. | 002/01 | Mineral su | 32 | Obşestvo s oqraniçennoy otvetstvennostyu "Yessentukskiy zavod mineralnıx vod na KMV", 357600, Stavropolskiy kray, q. Yessentuki, ul. Pyatiqorskaya, 141 (RU) | **ЕССЕНТУКИ** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3. | 003/01 | Mineral su | 32 | Obşestvo s oqraniçennoy otvetstvennostyu “Yessentukskiy zavod mineralnıx vod na KMV”, 357600, Stavropolskiy kray, q. Yessentuki, ul. Pyatiqorskaya, 141 (RU) | **ЕССЕНТУКИ № 4** |
| 4. | 004/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan(GE) | ახაშენი<br>**AKHASHENI**<br>**АХАШЕНИ** |
| 5. | 005/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan(GE) | ქინძმარაული<br>**KINDZMARAULI**<br>**КИНДЗМАРАУЛИ** |
| 6. | 006/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan(GE) | მუკუზანი<br>**MUKUZANI**<br>**МУКУЗАНИ** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 7. | 007/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan(GE) | ტვიში<br>**TVISHI**<br>**ТВИШИ** |
| 8. | 008/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan (GE) | ხვანჭკარა<br>**KHVANCHKARA**<br>**ХВАНЧКАРА** |
| 9. | 009/01 | Şərab | 33 | Gürcüstan Milli Əqli Mükiyyət Mərkəzi "SAKPATENTİ", Antiox küçəsi 5, 3300 Mtskheta, Gürcüstan GE) | წინანდალი<br>**TSINANDALI**<br>**ЦИНАНДАЛИ** |
| 10. | 014/01 | Xalça | 27 | Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2(AZ) | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | <br>İrəvan qrupu<br>İrəvan şəhər xalçası |
| 11. | 015/01 | Xalça | 27 | Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2 (AZ) | <br>İrəvan qrupu Əştərək xalçası |
| 12. | 016/01 | Xalça | 27 | Muradov Vidadi Aydın oğlu, Bakı şəh., Nərimanov rayonu, Şəmsi Rəhimov küçəsi 2(AZ) | <br>İrəvan qrupu Zəngəzur xalçası |

| | | | | | |
|---|---|---|---|---|---|
| 13. | 017/01 | Pendir | 29 | Consorzio del Formaggio ’Parmigiano-Reggiano",Via Kennedy, 18 Reggio Emilia, Italy (IT) | PARMIGIANO REGGIANO |
| 14. | 018/01 | Mineral su | 32 | "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti, Naxçıvan MR, Naxçıvan şəhəri,Ə Əliyev küçəsi (AZ) | Vayxır |
| 15. | 019/01 | Kəlağayı | 25 | CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı, ev 20/67, mənzil 28 (AZ) |  Basqal kəlağayısı- YALXI İSPİRƏK |

| | | | | | |
|---|---|---|---|---|---|
| 16. | 020/01 | Kəlağayı | 25 | CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı, ev 20/67, mənzil 28 (AZ) |  Basqal kəlağayısı-DUVAĞ |
| 17. | 021/01 | Kəlağayı | 25 | CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı, ev 20/67, mənzil 28 (AZ) |  Basqal kəlağayısı-HEYRATI |
| 18. | 022/01 | Kəlağayı | 25 | CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı, ev 20/67, mənzil 28 (AZ) |  Basqal kəlağayısı-HEYRATI |

| | | | | | |
|---|---|---|---|---|---|
| 19. | 023/01 | Kəlağayı | 25 | CAHANGİR-T FİRMASI, AZ 1009, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı, ev 20/67, mənzil 28 (AZ) |  Basqal kəlağayısı-Abbasəli |
| 20. | 024/01 | Limon dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | LƏNKƏRAN |
| 21. | 025/01 | Quru dolma | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | QAX |

| | | | | | |
|---|---|---|---|---|---|
| 22. | 026/01 | Ağ şanı dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | BAKI |
| 23. | 027/01 | Zeytun dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | ABŞERON |
| 24. | 028/01 | Qıra dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | KƏNGƏRLİ |
| 25. | 029/01 | Qoz dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | QƏBƏLƏ |

| | | | | | |
|---|---|---|---|---|---|
| 26. | 030/01 | Alma dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | QUBA |
| 27. | 031/01 | Balıq dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | SALYAN |
| 28. | 032/01 | Pip dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), ev IV, mən. 91 (AZ) | İSMAYILLI |
| 29. | 033/01 | Guba dolması | 29 | Azərbaycan Milli Kulinariya Assosiasiyası İctimai Birliyi, AZ1132, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Sülh (Bakıxanov Qəs.), | ORDUBAD |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | ev IV, mən. 91 (AZ) | |
| 30. | 034/01 | Kəlağayı | 25 | Xəlilov Ələskər Ağaxəlil oğlu, AZ 3111, İsmayıllı r-nu, Basqal ŞTQ (AZ) |  Basqal- heyratı- yorğan üzü |
| 31. | 035/01 | Kəlağayı | 25 | Xəlilov Ələskər Ağaxəlil oğlu, AZ 3111, İsmayıllı r-nu, Basqal ŞTQ (AZ) |  Basqal Heyratı-qızılı soldurma |
| 32. | 036/01 | Naxçıvan qovurması | 29 | Məmmədov Ziyafəddin Məcid oğlu, Naxçıvan MR, Naxçıvan şəhəri, Babək məhəlləsi(AZ) |   |
| 33. | 037/01 | Şəki halvası | 30 | Qaffarov Məmmədsaleh Əliəhməd oğlu ,AZ5500, | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | Şəki rayonu, M.Axundov, ev. 112(AZ) | **Şəki** |
| 34. | 037/02 | Şəki halvası | 30 | Səmədov Ramil Nadir oğlu, AZ 5500, Şəki rayonu, M.Axundov, ev 112(AZ) | **Şəki** |
| 35. | 038/01 | Mərmər | 19 | "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti,Naxçıvan MR, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi 5(AZ) | **Çalxanqala** |
| 36. | 039/01 | Mərmər | 19 | "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti,Naxçıvan MR, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi 5(AZ) | **Buzqov** |
| 37. | 040/01 | Mərmər | 19 | "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti,Naxçıvan MR, Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi 5(AZ) | **Çeşməbasar** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 38. | 041/01 | Şərab | 33 | "ŞİRVAN ŞƏRABLARI" Məhdud Məsuliyyətli Cəmiyyəti,AZ 1014, Bakı şəhəri, Nəsimi r-nu, Süleyman Rüstəm, ev 9(AZ) | Meysəri |
| 39. | 042/01 | Şərab | 33 | Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO,Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 32(AZ) | Ağdam şərabı |
| 40. | 043/01 | Travertin | 19 | "Gəmiqaya Daş məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti AZ 6719, Babək rayonu, Araz(AZ) | Qarabağlar |

| | | | | | |
|---|---|---|---|---|---|
| 41. | 044/01 | su | 32 | Babək "SİRAB" ASC,AZ6721, Babək rayonu, Sirab kəndi (AZ) | SİRAB |
| 42. | 045/01 | Fındıq | 31 | Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası, Zaqatala rayonu, Azərbaycan Prospekti 100(AZ) |  |

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.